

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 239 (23.150)

14 dekabr 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Dekabrın 13-də Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

Sonra Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və 2018-ci ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim edilib.

Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyələri təqdim edib.

* * *

Dekabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yeni inşa edilmiş Gənclər Mərkəzinin açılışında iştirak edib.




## Muxtar respublika iqtisadiyyatının dayanıqlı inkişafı maliyyə tənzimlənməsinin uğurla həyata keçirilməsinin nəticəsidir

***İnnovativ, şaxələndirilmiş, səmərəli və dayanıqlı inkişaf modelinə köklənmiş Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının idarə olunmasında maliyyə mexanizmindən düzgün istifadə çox mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikada bütün sahələrdə müşahidə olunan inkişaf bu baxımdan real sektorla maliyyə sektoru arasında səmərəli qarşılıqlı əlaqənin təmin edilməsi ilə səciyyələnir. Belə ki, muxtar respublikada həyata keçirilən büdcə-vergi siyasəti maliyyə sisteminin tərkib hissəsi kimi maliyyə resurslarının məqbul hissəsinin onun əlində cəmləşdirilməsini, mərkəzləşdirilməsini zəruri edir. Bu resurslardan istifadə forması isə dövlətin iqtisadi, siyasi və sosial vəzifələrinin yerinə yetirilməsi tələbatının maliyyə təminatçısı rolunda çıxış edən mərkəzləşdirilmiş pul vəsaiti fondlarıdır.***





Dövlətin iqtisadi inkişafının artım templərinin dayanıqlılığını, eləcə də həyata keçirilən islahatların yüksək səmərəliliyini şərtləndirən iqtisadi siyasətin əsas faktorlarından biri düzgün büdcə-vergi siyasətinin müəyyənləşdirilməsidir. Son dövrlərdə respublikamızda həyata keçirilən islahatlar iqtisadiyyatın büdcə sektorunun yenidən qurulması, büdcə sisteminin bütün səviyyələrində maliyyə resurslarının formalaşdırılması və xərclənməsi metodlarının prinsipial şəkildə dəyişdirilməsinə imkan yaratmışdır. Belə ki, inzibati-ərazi qurumlarının maliyyə müstəqilliyinin inkişafı, bir tərəfdən büdcə mərkəzləşdirilməsinin kafi səviyyəsinin saxlanılmasına, digər tərəfdən ərazi inkişafının büdcə tənzimlənməsi sahəsində qarşıya çıxan investisiyaların təşviq edilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına şərait yaratmışdır. Müasirtipli infrastruktur obyektlərinin yaradılması, yolların bərpası və digər tədbirlər qeyri-neft sektorunun dinamik artımına imkanlar açmışdır.

Muxtar respublikada 2018-ci ilin yanvar-oktyabr aylarında da əldə edilən yüksək nəticələr bu inkişafın davamlı xarakter aldığını və maliyyə tənzimlənməsinin uğurla həyata keçirildiyini göstərir. Belə ki, 2018-ci ilin 10 ayında bütün makroiqtisadi göstəricilər üzrə artım müşahidə edilib. Muxtar respublikada 2018-ci ilin yanvar-oktyabr aylarında 2 milyard 172 milyon 378 min 700 manatlıq ümumi daxili məhsul istehsal olunub ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz artaraq 4783 manata yaxın olub. Muxtar respublikada 383 növdə məhsulun istehsal edilməsi sahibkarlığa göstərilən dövlət qayğısı və yeni iqtisadi layihələrin dəstəklənməsi sayəsində mümkün olub. Belə ki, hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

Son illərdə yeni dövrün tələblərinə uyğun olaraq muxtar respublikada sənayeləşməyə ciddi diqqət yetirilir. Hazırda muxtar respublikada ümumi daxili məhsulun tərkibində ilk yeri 30,1 faizlə sənaye tutmaqdadır. 2017-ci ildə 967 milyon 60 min manat dəyərində sənaye məhsulu istehsal olunub ki, bu da bir il öncəki göstəricidən 1,4 faiz çoxdur. Cari ilin yanvar-oktyabr aylarında isə sənaye üzrə 827 milyon 648 min 800 manat dəyərində məhsul istehsal edilib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur.

İqtisadiyyatın şaxələndirilməsi istiqamətində digər sahələrə də diqqət artırılıb. Nəticədə, son illər güzəştli dövlət maliyyə dəstəyi ilə müasir texnologiyalara əsaslanan 254 heyvandarlıq, 84 quşçuluq, 15 balıqçılıq, 104 arıçılıq, 65 bağçılıq, 8 üzümçülük təsərrüfatı, ümumi tutumu 14 min ton olan 31 soyuducu anbar, ümumi sahəsi 128 min 162 kvadratmetr olan 21 istixana kompleksi, 19 taxıl emalı müəssisəsi istifadəyə verilib. Məşğulluq səviyyəsinin yüksəldilməsi məqsədilə son illər rayon və kəndlərdə 714 kənd təsərrüfatı təyinatlı istehsal və xidmət sahələri yaradılıb.

Bütün bunların nəticəsidir ki, 2018-ci ilin yanvar-oktyabr aylarında 386 milyon 792 min 300 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,1 faiz çoxdur. Ümumilikdə, son illər muxtar respublika iqtisadiyyatına 8,5 milyard manatdan çox investisiya yönəldilib, 12 mindən çox müxtəlif təyinatlı obyekt istifadəyə verilib. Əvvəllər muxtar respublikada cəmi bir elektrik stansiyası var idisə, bu gün enerji istehsalı müəssisələrinin sayı 8-ə, ümumi gücü 239,4 meqavata çatdırılıb. Ötən il müasir yol infrastrukturunun inkişafı ilə bağlı əhəmiyyətli tədbirlər həyata keçirilib, 70,5 kilometr uzunluğunda avtomobil yolları salınıb, 12 körpü tikilib və ya yenidən qurulub. Muxtar respublikaya xarici ölkələrdən 410 mindən çox turist gəlib. Hazırda muxtar respublikanın yaşayış ərazilərinin 98 faizi genişzolaqlı, 99 faizi isə simsiz internet xidməti ilə təmin olunub, 4G mobil rabitə xidməti istifadəyə verilib.

Regionun yüksələn xətlə inkişafı, iqtisadi-sosial həyatdakı artım tempi, əhalinin maddi rifah halının yaxşılaşdırılması demoqrafik inkişafa da öz təsirini göstərib. 1 oktyabr 2018-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3359 nəfər artaraq 455 min 288 nəfər olub.

Muxtar respublikada makroiqtisadi sahədə sabitliyin yaradılması büdcə-vergi siyasətinin uğurla həyata keçirilməsinin nəticəsidir. Sabit iqtisadiyyat isə güclü dövlətin başlıca təminatçısıdır. Bu baxımdan sosial problemlərin həll edilməsində, iqtisadiyyatın davamlılığının möhkəmləndirilməsində, onun inkişafına zəmin yaradılmasında, ölkənin müdafiə qüdrətinin möhkəmləndirilməsində maliyyə sisteminin, onun əsas halqası olan büdcə sisteminin rolu olduqca böyükdür.

**Sevinc CABBAROVA**
*iqtisad üzrə fəlsəfə doktoru*

*10-11 dekabr tarixlərində Türkiyə Respublikasının kənd təsərrüfatı naziri Bekir Pakdemir Azərbaycan Respublikasına rəsmi səfər edib.*

## Azərbaycan – Türkiyə biznes-forumunda muxtar respublikanın nümayəndə heyəti də iştirak edib

Səfər çərçivəsində Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə dekabrın 11-də kənd təsərrüfatı və qida sənayesi sahəsində Azərbaycan-Türkiyə biznes-forumu keçirilib. Biznes-forumda Azərbaycanın dövlət qurumlarının rəhbərləri, iş adamları, Türkiyədən gəlmiş 65 nəfərlik nümayəndə heyətinin üzvləri iştirak ediblər. Forumda muxtar respublikadan nazirliyin İnvestisiyaların təşviqi və ixraca dəstək şöbəsinin əməkdaşı və sahibkarlıq subyektlərindən "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının, "Ləzzət Qida Sənaye", "Dekor Qrup", "Az-Elektrod", "Ordubad Qənnadı Məmulatları", "Badamlı Mineral Sular" və "Çınqıllı-Bulaq" Məhdud Məsuliyyətli cəmiyyətlərinin nümayəndələri də təmsil olunub.

Biznes-forumda Naxçıvan Muxtar Respublikasından Türkiyə Respublikasına kənd təsərrüfatı məhsullarının ixracı istiqamətində fikir mübadiləsi aparılıb.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Operativ vergi nəzarəti tədbirləri davam etdirilir

2018-ci ilin noyabr ayında Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi tərəfindən operativ vergi nəzarətinin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 4 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib və müvafiq tədbirlər görülüb. Həyata keçirilən operativ vergi nəzarəti tədbirləri zamanı bir vergiödəyicisi tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması, bir vergiödəyicisi tərəfindən xarici valyuta məbləğinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları, 2 şəxsin isə vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduqları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.

Qeyd olunan dövrdə Vergilər Nazirliyi tərəfindən müvafiq icra hakimiyyəti orqanları ilə birgə tədbirlər planına əsasən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsinin Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlamaqla rəsmiləşdirilməsi, əməkhaqlarının real göstərilməsi ilə bağlı tikinti, ticarət, iaşə və digər xidmət obyektlərində araşdırmaların aparılması mütəmadi olaraq davam etdirilib. Belə ki, 12 işəgötürəndə aparılmış araşdırmalar zamanı 13 yeni əmək müqaviləsinin bağlanması, 8 əmək müqaviləsində isə əməkhaqlarının real əməkhaqları səviyyəsində göstərilməsinə nail olunub.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti***

## Torpaqlardan istifadə və onların mühafizəsinə dair monitorinqlər aparılır

Muxtar respublikada daşınmaz əmlakın kadastrı və reyestrinin təkmilləşdirilməsi sahəsində ardıcıl fəaliyyətin təmin edilməsi, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi noyabr ayında da diqqətdə saxlanılmışdır. Şərur rayonunun Ərəbyengicə, Axaməd, Qarabürc, Çəmənli, Arpaçay və Qarahəsənli kəndlərində daşınmaz əmlak obyektlərinin plana alınması başa çatdırılmış, 2166 daşınmaz əmlak obyekti plana alınmışdır. Şərur rayonunun Yuxarı Yaycı, Havuş, Gümüşlü və Şərur bələdiyyələrinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri, Naxçıvan şəhər inzibati ərazi vahidinin tərkibinə daxil olan Qaraçuq bələdiyyəsinin mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron kadastr xəritəsi hazırlanmışdır. Bundan başqa, Babək rayonunun Şıxmahmud, Xəlilli, Yuxarı Uzunoba və Aşağı Uzunoba kəndlərinin ərazisində torpaqlardan istifadəyə və onların mühafizəsinə dair monitorinqlər aparılmışdır.

Ötən ay 426 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınmış, 332 texniki sənəd hazırlanmış, yeni yaranmış 57 daşınmaz əmlak obyektinə ünvan verilmiş, Naxçıvan şəhərində daşınmaz əmlak obyektlərinin ünvanlarının dəqiqləşdirilməsi davam etdirilmişdir.

Komitənin səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 8 yaşayış məntəqəsində 48 vətəndaşın müraciətinə baxılmışdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

Yeniləşən kəndlərimiz

# Qədim yurd yerinin müasirlik qazancı

## *Qazançılılar bunun sevincini yaşayırlar*

***Culfa rayonunun Qazançı kəndi ölkəmizin ən qədim yaşayış məskənlərindən biridir. Ərazidə Tunc və İlk Dəmir dövrlərinin abidəsi olan Qazançı qalası, orta əsrlərə aid Qazançı körpüsü, ətrafdakı bir neçə kənd xarabalıqları, karvansaray və sair abidələr də bunu sübut edir. Bu kəndin daşıdığı ad zahirən bir neçə mənaya uyğun gəlir. Toponimlə və onun etimologiyası ilə daha dəqiq elmi məlumat əldə etmək üçün bu barədə fikir söyləmiş bir neçə tədqiqatçının əsərlərini vərəqlədim.***




İ.Şopenin yazdığına görə, Nadir şaha qədər burada mindən artıq ailə yaşayıb. Bu faktı kəndin 1727-ci ildə Əlincə nahiyəsinə daxil olan 28 kənd içərisində ən çox vergi verməsi də təsdiqləyir. Adın etimologiyasına gəldikdə Q.Qeybullayev "Qazançı" adının mənşəyini bizim eranın II əsrində Cənubi Qafqazda yaşayan qədim türkdilli bolqar tayfaları ilə əlaqələndirərək yazır ki, Azərbaycanda 10 Qazançı oykonimi var idi.

S.Babayev digər yerlərlə yanaşı, bəhs olunan ərazidə Qazançı kəndi, Qazançı qalası (eramızdan əvvəl II-I minillikdə), Qazançı çökəkliyi, Qazançı gölü, Qazançı mineral bulağı adlı toponimlərin "Kitabi-Dədə Qorqud" dastanının baş qəhrəmanı Qazan xanın adı ilə bağlı yaranması ehtimalını irəli sürür.

A.Bayramov bu oykonimin "Qazanın tərəfdarı" mənasında işləndiyini yazır. Digər bir mənbədə göstərilir ki, adı V əsrdə çəkilən "Gözəl Qazan" sonralar "Kitabi-Dədə Qorqud" dastanının baş qəhrəmanı kimi təsvir olunur.

Mərhum Adil Bağırov da "Qazançı" adının etimologiyası ilə bağlı belə bir fikir yürüdüldüyündən bəhs edərək yazırdı ki, bu ad "Kitabi-Dədə Qorqud" dastanının qəhrəmanı Salur Qazanın adı ilə bağlıdır.

Bu deyilənlərdən belə nəticəyə gəlmək olur ki, "Qazançı" adının mənşəyinin bolqar türk tayfa adı ilə əlaqələndirilməsi doğru faktdır. Çünki bu ad bolqarların Kazan qolunun adı ilə bağlıdır.

Yaranması Tunc və İlk Dəmir dövrlərinə gedib çıxan Qazançı kəndi dünənə ehtiram, bu günə sevgi, sabaha cavabdehlik ruhlu insanların qayğısı ilə bu gün müasir bir yaşayış məntəqəsinin canlı nümunəsidir. Onun tarixi də qorunur, bu günü də. Tarixin yadigarlarından biri XVII əsrin əvvəllərində Şərq memarlıq üslubunda inşa edilmiş Qazançı körpüsüdür. Bu gün həmin körpünü həm də rəmzi olaraq dünəndən bu günə körpü adlandıra bilərik. Bu körpü üzərindən vaxtilə Qazançıdan Şərq istiqamətində uzanaraq Ordubad ərazisində əsas yola birləşən karvan yolları keçib. Azərbaycanın biraşırımlı körpülərinin ən yaxşı nümunəsi sayılan bu tarixi memarlıq abidəsi bərpadan sonra cari ilin noyabr ayının 30-da istifadəyə verilib. Körpünün şimal tərəfdən yol ilə birləşmə hissəsi orijinallığı saxlanılmaqla bərpa olunaraq uzunluğu 50 metrə çatdırılıb, ətrafda 120 metr sahilbərkitmə işləri görülüb, 50 metr dəmir-betondan istinad divarı salınıb, üzəri dağ daşları ilə üzlənib.

Yeni həyat qazanmış abidəyə bir qədər baxıb Qazançı kəndinin mərkəzinə yol alırıq. Qarşıda bizi yeni məktəb binası, kənd və xidmət mərkəzləri, müasir həkim ambulatoriyası, mərasim evi öz ovsununa salacaq. Və kənddə görəcəyik ki, bu ucqar dağ yaşayış məntəqəsinə böyük dövlət qayğısının ifadəsi olan yeni obyektlər qazançılıların xoş və firavan həyatına hesablanılıb.

Kənd sakinləri ilə söhbətdə onlar görülən bu işləri yüksək dəyərləndirirlər. Kənd tam orta məktəbinin direktoru Gültəkin Əliyevanın dediklərindən:

– 216 şagird yerlik məktəbdə bu gün 44 şagird təhsil alır. Bu rəqəmləri müqayisə etsək, görərik ki, bizə necə böyük qayğı göstərilib. Kəndin gələcək perspektivi nəzərə alınaraq inşa olunmuş 3 mərtəbəli bina ən müasir tədris avadanlıqları ilə təchiz edilib. Qarşımızda qoyulmuş vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsi üçün hər cür şərait yaradılıb. Başlıca vəzifəmiz isə dövlətə, dövlətçiliyə layiq vətənpərvər vətəndaşlar yetişdirməkdir. Təbii ki, bu gün vətənpərvər vətəndaş bütün müsbət keyfiyyətləri özündə cəmləşdirməli, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməyi bacarmalı, öz dilini, ədəbiyyatını, tarix və mədəniyyətini bilməli, yüz illər boyu formalaşmış və bu günümüzə gəlib çatmış milli-mənəvi dəyərlərimizə sahiblik hissini həyat amalına çevirməli, ərazi bütövlüyümüz, sərhədlərimizin qorunmasında üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirməyə çalışmalıdır. Pedaqoji kollektivimiz çalışır ki, bugünkü şagirdlərimiz məhz belə tərbiyə olunsunlar. Qazandığımız nailiyyətlər deməyə əsas verir ki, məktəbimizdə fəaliyyət göstərən müəllimlərin çəkdikləri zəhmət hədər getmir. Elə götürək keçən tədris ilinin nəticələrini. Məktəbin 7 məzunundan 6-sı ali məktəbə qəbul olunub. Onlardan biri 500-700 intervalında bal toplayıb, bir məzun isə təhsilini peşə liseyində davam etdirir.

Məktəbin müəllimləri Vəli Məmmədov, Şahsənəm Əliyeva söhbətə qoşulurlar. Onlar bu il məktəbi bitirəcək 6 məzunun hamısının yüksək balla ali məktəblərə daxil olacaqlarını əminliklə bildirirlər. İstifadələrinə verilmiş belə müasir məktəb binası üçün minnətdarlıqlarını dilə gətirirlər. Onların sevincini duymaq çətin deyil.

Məktəblə tanışlıqdan, kollektivlə söhbətdən gəldiyim qənaət bu oldu ki, kollektiv Ali Məclis Sədrinin müəllimlərlə görüşündə dediyi sözləri öz fəaliyyət prinsipinə çevirib: ***"Məktəb işi, sadəcə, şagirdlərə təhsil verməkdən ibarət deyil. Məktəb hər bir ölkənin gələcəyini hazırlayır. Sağlam gələcək hazırlamaq üçünsə, məktəbdə lazımi şərait yaradılmalı, müəllimlər gəncləri əsl vətəndaş kimi yetişdirməlidirlər...***

***Qazançı kənd tam orta məktəbində yaradılan şərait qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verir. Müəllimlər şagirdlərə yaxşı təhsil verməli, gənclərimiz isə özlərini gələcəyə hazırlamalıdırlar".***

Qazançının simasına yenilik, müasirlik gətirən daha bir obyekt kənd mərkəzidir. Burada inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, statistika otağı, mədəniyyət evi, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, arxiv və 44 yerlik zal yerləşir. Kənd mərkəzində yaradılan mədəniyyət evi və zal müxtəlif mədəni-kütləvi tədbirlərin keçirilməsinə və kənd sakinlərinin asudə vaxtlarının səmərəli təşkilinə imkan verib.

Kənd mərkəzində istifadəyə verilən rabitə evində quraşdırılan 384 yerlik ATS Qazançı kəndinin 128 abonentinə və 48 internet istifadəçisinə xidmət edir.

Lazımi tibbi avadanlıqlarla təchiz edilmiş həkim ambulatoriyasında çalışan ağxalatlı peşə sahiblərinin müxtəlif tibbi avadanlıqlardan səmərəli istifadəsinə hərtərəfli şərait yaradılıb. Ambulatoriyanın baş həkimi Cəmil Əliyev deyir ki, istifadəmizə verilən həmin avadanlıqlara bir vaxtlar ancaq mərkəzi xəstəxanalarda rast gəlirdik. Üstəgəl, indiki avadanlıqlar əvvəlkilərdən qat-qat yüksək funksiyalara malikdir. Odur ki, ucqar dağ kəndində yaradılan bu şəraiti qazançılılar onlara göstərilən dövlət qayğısı kimi yüksək dəyərləndirirlər.

Xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları və anbar vardır.

Kompleks quruculuq tədbirləri çərçivəsində istifadəyə verilən mərasim evi kənd adamları tərəfindən yüksək dəyərləndirilib. Qazançı kəndində yeni sosial obyektlər tikilərkən bir sıra abadlıq işləri də görülüb. Belə ki, kənddaxili avtomobil yolları yenidən qurulub, su keçidləri qoyulub, beton kanal çəkilib. Kənddə 980 metr yeni fiber-optik kabel, yeraltı kabel və hava rabitə xətləri çəkilib. Qaz xətlərində təmir-bərpa işləri aparılıb, içməli su xətti çəkilib və bulaq tikilib.

Kənd adamları ilə də söhbətimiz maraqlı oldu. Kənd ziyalısı Hicran Musayev bildirdi:

– Ulu öndərimiz Heydər Əliyev ölkəmizin inkişafına ciddi diqqət yetirirdi. Bu gün qürur duyuruq ki, dahi şəxsiyyətin siyasi xətti ölkəmizdə uğurla davam etdirilir. Bunun ifadəsidir ki, indi bütün kəndlərimizdə müasir şərait yaradılır. Bunu muxtar respublikamızın timsalında da görmək olar. Qazançı kəndində də böyük quruculuq işləri görülüb, məktəb, həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri tikilib. Eyni zamanda qədim abidəmiz olan Qazançı körpüsü bərpa edilib.

Artıq Qazançı da müasir yaşayış məntəqələri sırasındadır. Yeri gəlmişkən qeyd edək



ki, 762 sakinin 224 təsərrüfatda yaşadığı Qazançı Culfa rayonunun iqtisadiyyatına töhfələr verən kəndlərdən biridir. Kənddə müxtəlif təsərrüfat sahələri inkişaf etdirilir. Bu sahələr kənd adamlarının daimi iş yerinə çevrilib. Torpağa ruzi-bərəkət mənbəyi kimi baxan, onun səxavətini görən qazançılılar məhsul bolluğu yaratmaq üçün mövcud imkanlardan, dövlətimizin bərqərar etdiyi şəraitdən səmərəli istifadə edirlər. Son illər bu kənddə də ailə fermer təsərrüfatlarının sayı artmaqdadır. Onlardan Rəhim Rzayev, əsasən, arıçılıqla məşğul olur. O, 80-ə yaxın arı ailəsi saxlayır. Hüseyn Əliyev isə 70 arı ailəsinin sahibidir. Vüsal Məmmədov quşçuluq, traktorçu-mexanizator Nurəddin Xıdırov taxılçılıqla məşğul olurlar.

Onlar söhbət zamanı qazançılılar üçün yaradılan şəraitdən və muxtar respublikamızda son illər təşkil edilən kənd təsərrüfatı məhsullarının satış yarmarkalarından və festivallardan razılıqlarını bildirdilər. Belə tədbirlərin insan amilinə, onun çəkdiyi zəhmətə verilən böyük dəyər olduğunu vurğuladılar.

*Beləcə, payızla qışın qovuşacağında daha bir yaşayış məntəqəmiz özünün yeni dövrünə qədəm qoyub. Qazançılılar bu dövrün sevincini yaşamaqdadırlar. Biz isə onlara bu sevincin daimi olmasını arzulayırıq.*

**Muxtar MƏMMƏDOV**

# "Sumqala" üzümçülük təsərrüfatı aqrar sahənin inkişafına öz töhfəsini verəcək

*Azad sahibkarlıq fəaliyyətinin geniş vüsət aldığı muxtar respublikada bu gün rəqabətqabiliyyətli, ixracyönümlü, çoxşaxəli, innovativ iqtisadiyyatın formalaşdırılması, mütərəqqi təcrübəyə əsaslanan yeni müəssisələrin yaradılması istiqamətində işlər uğurla davam etdirilir. Ötən dövrdə yaradılmış belə müəssisələrdən biri də "Sumqala Tikinti Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyətidir.*

Hazırda bu sahibkarlıq subyekti muxtar respublikada meyvəçiliyin və üzümçülüyün inkişaf etdirilməsi sahəsində mühüm addımlar atır. Bu il Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində keçirilən tədbirdə isə adıçəkilən müəssisənin rəhbəri Kazım Mehdiyev "Biznesdə uğur – 2017" nominasiyası üzrə "İlin sahibkarı" adına layiq görülüb. Elə biz də sahibkarla Naxçıvan-Culfa avtomobil yolunun 15-ci kilometrliyində, şose yoldan bir az aralı salınmış yeni alma və üzüm bağında görüşüb söhbətləşdik.

Öyrəndik ki, Kazım Mehdiyev Babək rayonunun Nehrəm kəndindəndir. O, 2015-ci ildə "Sumqala" Nehrəm üzümçülük təsərrüfatını yaradıb. Onun dediklərindən: "Bildiyiniz kimi, muxtar respublikamızın ərazisi üzümçülük üçün münbit torpaqlara malikdir. Vaxtilə Naxçıvanın, demək olar ki, bütün bölgələrində bu sahə inkişaf etdirilib. Babək rayonu da bu sırada istisna deyil. Bizim hazırda bağçılıqla məşğul olduğumuz ərazi Babək və Culfa rayonlarının tam sərhədində yerləşir. Buradakı düzənliklərdə indiyədək heç bir əkin sahəsi olmayıb. Buna görə də Culfa rayonunun Qızılca kəndindən, təxminən, 12 kilometr məsafədən əraziyə su xətti çəkmişik. Suyun toplanması üçün burada 3 ədəd 1000 tonluq su çənləri qoyulub və su əraziyə 2 nasos stansiyası ilə paylanılır. Suvarma damcı üsulu ilə aparılır. Bundan əlavə, ərazidə inzibati bina, texnikaların təmiri və saxlanılması üçün anbar yerləşir.



Sahibkar bizə məlumat verir ki, 3 il bundan əvvəl 75 hektar ərazidə üzüm bağı salınıb. Digər 15 hektar ərazini isə alma bağı təşkil edir. Üzüm tingləri "Sultanina", "Viktoria", "Cardinal", "Qara kişmiş", "Ağ kişmiş", "Natilde" və digər üzüm sortlarıdır ki, bunların hamısı hazır calaq edilmiş formada Avropadan gətirilib. Bu üzüm sortları keyfiyyətinə, məhsuldarlığına görə fərqlənirlər. Eyni zamanda üzüm tingləri 24 dərəcə soyuq temperatura qədər dözümlüdür. Buna görə müasir standartlara uyğun olaraq əkilmiş üzüm tinglərini qış fəslində torpaq və ya polietilenlə basdırmağa ehtiyac yoxdur. Müsahibimin sözlərinə görə, payız mövsümündə üzüm tinglərinin aşağı hissəsi 30 santimetr hündürlükdə torpaqla örtülür ki, burada əsas məqsəd calaq olunmuş hissənin donmamasıdır.

Alma bağında əkilmiş tinglər də məhsuldarlıq baxımından fərqlidir. Sarı, qırmızı, tünd-qırmızı, yaşıl rənglərdə olan "Golden rinders", "Granny Smith", "Rink Lady", "Galaval Gala" və digər növlərin tingləri də Avropadan gətirilib. Bu tinglərin seçilməsində də muxtar respublikanın iqlimi əvvəlcədən nəzərə alınıb.

Kazım Mehdiyev bildirdi ki, bu il üzüm bağından nübar məhsul götürülüb. Bağa aqrotexniki tələblərə uyğun olaraq aqronom və bu sahədə təcrübəsi olan işçilər tərəfindən qulluq edilir. Hazırda təsərrüfatın 106 işçisi var. İşçilər üçün burada hərtərəfli şərait yaradılıb. Onlar isti yeməklə, evə gedib-gəlmək üçün nəqliyyat vasitəsi ilə təmin olunublar.

Öyrəndik ki, burada, həmçinin yeni istehsal müəssisəsi də yaradılıb. Belə ki, tədarük edilən məhsulun qablaşdırılması üçün ərazidə plastik qutuların istehsalı müəssisəsi tikilib, yeni avadanlıqlar quraşdırılıb. Artıq son tamamlama işləri başa çatdırılıb, nümunə üçün məhsullar istehsal olunub. Eyni zamanda soyuducu anbarların yaradılması işi də başa çatdırılıb ki, bu da sahələrdən yığılan məhsulun müasir tələblərə uyğun saxlanılması üçün başlıca şərtdir.

Kazım Mehdiyev bizimlə söhbəti zamanı onu da bildirdi ki, kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı üçün göstərilən dövlət dəstəyi bir sahibkar kimi bizi çox sevindirir. O qeyd etdi ki, bu il oktyabrın 21-də müəssisəmiz Fransanın paytaxtı Paris şəhərində SIAL Paris Beynəlxalq ərzaq sərgisində təmsil olunub. Göstərilən etimada, qayğıya, eləcə də yaradılan şəraitə görə dövlətimizə minnətdarlığını bildirən Kazım Mehdiyev bundan sonra da muxtar respublikamızın iqtisadi inkişafına töhfə verəcəklərini, daxili bazarın qorunmasında, yeni iş yerlərinin yaradılmasında yaxından iştirak edəcəklərini bildirdi.

Bəli, son illərdə muxtar respublikamızda kənd təsərrüfatının inkişafı sahəsində əhəmiyyətli addımlar atılır. Üzümçülüyün, meyvəçiliyin inkişafı ilə bağlı mühüm dövlət proqramları icra olunur. Bu istiqamətdə görülən işlər yaxın gələcəkdə aqrar sektorda qazanılacaq yeni nailiyyətlərə ümidləri bir daha artırır.

**Səbuhi HƏSƏNOV**

## Edvard Karvardin: Naxçıvanda gənclərin inkişafı üçün hərtərəfli şərait yaradılıb



Dekabrın 13-də BMT Uşaq Fondunun Azərbaycandakı nümayəndəsi Edvard Karvardin Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyində olub.

Qonaq, həmçinin Naxçıvan Dövlət Xalça Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi və Duzdağ Fizioterapiya Mərkəzi ilə də tanış olub.

Edvard Karvardin səfər təəssüratlarını "Şərq qapısı" qəzetinin müxbiri ilə bölüşərək deyib: – Bu, mənim Naxçıvana ilk səfərimdir. Səfərimin uğurlu keçdiyini deyə bilərəm. Keçirdiyim görüşlər, həmçinin Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu, Gənclər Mərkəzi və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzi ilə tanışlığım burada uşaq və yeniyetmələrin hərtərəfli inkişafı, onların dəstəklənməsi üçün görülən işlər haqqında dolğun təsəvvür yaratdı. Düşünürəm ki, görülən bu işlər Naxçıvan Muxtar Respublikasındakı uşaq və gənclərin inkişafında mühüm təsir gücünə malikdir. Ümid edirəm ki, BMT Uşaq Fondu gələcəkdə Naxçıvan Muxtar Respublikası ilə qarşılıqlı təcrübə mübadiləsi aparmaq, xüsusən burada əldə olunmuş nailiyyətləri öyrənmək baxımından daha yaxından əməkdaşlıq edəcək. Bu mənada, muxtar respublikada həyata keçirilən tədbirlərlə yaxından tanış olmağımı təmsil etdiyim qurumla əməkdaşlıq baxımından çox faydalı hesab edirəm.

Naxçıvan haqda ümumi təəssüratlarıma gəldikdə, birgünlük qısa səfərimdə bir çox yerlə tanış olmağıma sevinirəm. Bu gün səhər ümummilli lider Heydər Əliyevin adını daşıyan muzeylə tanışlıq zamanı geniş məlumat əldə etdim. Tarix-mədəniyyət abidələrinə, Naxçıvan Dövlət Xalça Muzeyinə baş çəkdim və Naxçıvanın qədim mədəniyyəti məndə zəngin təəssürat yaratdı. Şəhərin gözəlliyi, müasir binalar və infrastruktur, eləcə də rastlaşdığım insanların təbəssümü qonaqpərvərlik baxımından mənim təəssüratlarımı daha da dərinləşdirdi.

## Gənclərlə maarifləndirici təlim keçirilib



Naxçıvan şəhərindəki Gənclər Mərkəzində BMT Uşaq Fondunun və Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun birgə təşkilatçılığı ilə muxtar respublikanın ali və orta ixtisas məktəblərinin tələbələrinin iştirakı ilə "Dayanıqlı inkişaf məqsədlərinin gənclər vasitəsilə təbliği" mövzusunda maarifləndirici təlim keçirilib.

Tədbirdə BMT Uşaq Fondunun Azərbaycandakı nümayəndəsi Edvard Karvardin çıxış edərək bildirib ki, Naxçıvanda olduğu qısa zaman çərçivəsində burada gənclərin inkişafına yönəlmiş geniş imkanların yaradıldığının şahidi olub.

BMT-nin Azərbaycandakı Ofisində humanitar proqramlar üzrə analitik Elgün Tağıyev çıxışında keçirilən təlimin əhəmiyyətindən danışıb, gənclərin bu sahədə fəallığının təqdirəlayiq hal olduğunu diqqətə çatdırıb.

Təlimi BMT-nin Gənclər üzrə Məşvərət Şurasının üzvləri Şəhla Mirzəzadə və İlkin Əliyev aparıblar. Əvvəlcə gənclərə təlimin ilkin anlayışlarını izah edən yazılı testlər təqdim olunub, bir neçə intellektual xarakterli oyunlar keçirilib. Bundan başqa, təlim müddətində gənclərə 17 dayanıqlı inkişaf məqsədləri barədə ətraflı məlumat verilib, onların fikir və mülahizələri dinlənilib, maraq doğuran suallara aydınlıq gətirilib.

**Xəbərlər şöbəsi**

## Diyarımızın özü qədər qədim duz yaddaşı

***Azərbaycanın ən qədim bölgələrindən biri olan Naxçıvan diyarında zərgərlik, dülgərlik, xəttatlıq kimi peşələrlə yanaşı, tarixi çox qədimlərə söykənən duzçıxarma peşəsi insanlar arasında geniş yayılıb. Hələ Nuh Peyğəmbər dövründə mövcud olan duzçıxarma sonralar insanların əsas məşğuliyyət sahələrindən birinə çevrilib. Bəs bu gün də qorunub yaşadılan duzçıxarma peşəsi nə vaxt yaranıb?***



Tarixi mənbələrdə Duzdağ və duzçıxarma ilə bağlı o qədər geniş məlumat olmasa da, son illərdə bununla bağlı aparılan genişmiqyaslı araşdırmalar, bu haqda elm adamlarının fikirləri, müxtəlif ölkələrin tarixçiləri tərəfindən verilən məlumatlar gizli qalan bir çox faktları üzə çıxarıb. XIX əsr mənbələrində bununla bağlı rəvayətlərin birində deyilir ki, Nuh Peyğəmbər Dünya tufanından sonra Naxçıvanda məskunlaşan əhaliyə bir sıra sənətkarlıq sahələrini, o cümlədən Duzdağda duzçıxarmanı öyrədib. Araşdırmalar nəticəsində qədim mədənlərdən aşkar edilmiş alətlərin təhlili rəvayətin reallığını, yəni V minillikdə buradan duzun mədən üsulu ilə çıxarıldığını və dünyanın ən qədim duzçıxarma mağarasının da məhz Naxçıvana məxsusluğu faktı təsdiq olunub. II əsrdə yunan alimi Klavdi Ptolomey, XVI əsrdə ərəb alimi Əl-Şərifi, XIX əsrdə rus alimi Konstantin Nikitin kimi tarixçilər və bundan sonrakı dövrlərdə tədqiqat işləri aparan yerli tarixçilərimiz öz əsərlərində Naxçıvan şəhərinin formalaşmasının Nuh Peyğəmbərlə və duzun çıxarılması ilə bağlı olduğunu qeyd ediblər. Rus tədqiqatçısı K.A.Nikitinin "Naxçıvan mahalı və Naxçıvan şəhəri" adlı irihəcmli məqaləsində belə bir məlumat da vardır ki, Nuh Peyğəmbərin özü duz mədənində ilk çalışanlardan biri olub və şəhər əhalisinə duz çıxarmağı öyrədib. Bu da Naxçıvan şəhəri ilə Duzdağın, təxminən, yaşıd olduğunu deməyə əsas verir.

Duzdağ mədənlərinin arxeoloji cəhətdən tədqiqi keçən əsrin 70-ci illərində yenidən başlanılıb. 1967-ci ildə uçqun zamanı və 1976-cı ildə Duzdağda qazma işləri aparılarkən qədim şaxta aşkar edilib. AMEA-nın müxbir üzvü, görkəmli alim, mərhum Hacı Qadir Qədirzadənin "Naxçıvan: Nuh baba və türk atadan gələn yol" kitabında qeyd edilir ki, araşdırmalar zamanı diqqəti daha çox salonların quruluşu cəlb edirdi. Şaxtaçı fanarlarının işığında sanki büllur saray canlanırdı. Hər yer almaz kimi parlayan duz kristalları ilə dolu idi. Həmçinin müəyyən edilmiş qamçıtipli qalıntı, araba izləri və sair buradan uzun müddət duz çıxarıldığının əyani sübutu idi. 2006-2011-ci illərdə AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə fransız arxeoloji ekspedisiyası tərəfindən aparılan tədqiqat işləri nəticəsində buradan daş alətlərlə yanaşı, Eneolit, Erkən Tunc, Dəmir dövrlərinə və orta əsrlərə aid keramika məmulatları, daş çəkiclər tapılıb. Həmin tapıntılar Erkən Tunc dövründə duz çıxarılması işinin daha geniş hal aldığını göstərir.

Dərələyəz dağ silsiləsindən cənuba, Araz çayına qədər uzanan Duzdağ dağ silsiləsi el arasında "Qaş", "Cəhrinin qaşı" da adlanır. Duzdağ isə onun cənub hissəsini təşkil edir. Milyon illər boyu duzla örtülmüş bu ərazidən insanlar duz çıxarmaq, çölün vəhşiləri, qoyun-keçi sürüləri isə duz yalamaq üçün gəliblər. "Naxçıvan: Nuh baba və türk atadan gələn yol" kitabında etnoqrafik və arxeoloji məlumatlara əsaslanaraq qeyd edilib ki, qədim dövrlərdən başlamış ilk orta əsrlərdə və sonrakı dövrlərdə Duzdağın indi də tarixən də açıq üsulla duz çıxarılan yerlərinin şərqində, Cəhri kəndi ərazisində Qoşatəpə, Əyriarx, Tülkü təpəsi, Binətəpə kimi yaşayış məskənləri mövcud olub. Buranın insanları arasında duz çıxarmaq fərdi xüsusiyyət daşıyıb. AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyevin "Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində" kitabında belə bir qeyd vardır ki, XVIII əsrin sonlarınadək Naxçıvanda duz istehsalı ilə Cəhri kəndinin sakinləri məşğul olublar. Lakin Kalbalı xanın vaxtında, XIX əsrin əvvəllərində cəhrililər bu işdən kənarlaşdırılıb. Rəsmi göstərişə baxmayaraq, Cəhri kəndinin sakinləri XX əsrin 30-cu illərinə qədər Duzdağ ərazisindən duz çıxarmaqda davam ediblər.



Duzçıxarma üsulunu mənimsəyən insanlar zamanla bu peşənin sahibinə çevriliblər. "Naxçıvan: Nuh baba və türk atadan gələn yol" kitabında qeyd edilib ki, duz çıxarılmasında lom, külüng, dəmir guppan və daş alətlər əsas vasitələr idi. Çəkisi 2-3 pud, ucları sivri daş guppanlardan duz uçqunu yaratmaq, duz sallarını qırıb tökmək üçün istifadə edilib. Daşla duz çıxarılması ənənəsi isə qədim Daş dövründən, ibtidai insanlardan qalıb. Bu alətlər sonralar zərurət səbəbindən yerli ustalar tərəfindən düzəldilib. Sonrakı dövrlərdə dəmir əmək alətlərindən istifadə və barıtın kəşfi məhsuldarlığı xeyli artırıb. Çıxarılan duz, əsasən, sal, xınc və narın duz formalarında olub. Bir neçə üsulla hazırlanan narın duzdan məişətdə geniş istifadə edilib. Duz salları daş və ya çəkiclə əzilib xınc formasına salındıqdan sonra müxtəlifölçülü dibək daşlarında döyülüb. Duzun çox istifadə edildiyi ailələrdə isə onu kirkirədə (dəstər, əl dəyirmanı) çəkiblər. Xalq arasında belə alətlər "ehsanlıq" adlandırılıb, qohum və qonşular arasında ondan istifadə təmənnasız olub.

O dövrdə ağ duzdan o qədər istifadə edilməyib, çünki ağlığına baxmayaraq, belə duzların dadı olmayıb. Narın duz ayrıca qablarda və duz çuvallarında saxlanılıb. Duz torbaları müxtəlifölçülü olub, naxışlı formada palaz materialından tikilib. Duza böyük inam olduğundan duz çuvalı, duz qabı ciddi şəkildə qorunub. Elə bunun nəticəsidir ki, müqəddəs sayılan Duzdağ da qorunub, insan ömrü ilə müqayisə edilib, dua, alqış yerinə çevrilib. "Səni görüm ömrün Duzdağına dönsün" deyimi indi də Naxçıvanda alqış, dua kimi söylənilir.

Məişətin digər sahələri ilə yanaşı, duzdan heyvandarlıqda da geniş istifadə edilib. Həmin kitabda etnoqrafik materiallara əsaslanaraq yazılıb ki, yastı və hamar duz daşları üzərinə səpilən döyülmüş duz xırdabuynuzlu heyvanların əsas qidası olub. İribuynuzlu mal-qara üçün isə duz sal şəklində müəyyən yerlərə qoyulub. Duzdan təkcə heyvanlara vermək üçün yox, həm də heyvanat məhsullarının hazırlanmasında, xüsusən pendirin duzlanması, şorov hazırlanması, motal və eymələrdə qurd əmələ gəlməsinin qarşısını almaq üçün geniş istifadə edilib.

V.Q.Qriqoryevin "Naxçıvan şəhərinin statistik təsviri" adlı kitabında qeyd edilib ki, ilin yay aylarında Qarabağdan gələn köçlərin Salvartının, Əriklinin, Dərələyəzin yurdlarında yerləşməsi duza olan tələbatı daha da artırıb. Duz yaylaqlara, dağ və dağətəyi kəndlərə qatır və ulaqlarla daşınıb. Naxçıvan Müəllimlər İnstitutunun rektoru, dosent Elbrus İsayev öz tədqiqatlarında tarixin müəyyən mərhələsində Naxçıvandan çıxan karvanların əsas yükünün duz olduğu qeyd edir. Deməli, Naxçıvan duzu ən yaxşı ticarət və mübadilə vasitəsi olub.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev də yazır ki, vaxtilə Naxçıvan ərazisində duz ticarəti əsaslı şəkildə inkişaf edib. Naxçıvan mədənlərindən çıxarılan duz İrəvan vilayətinin Gərniçay və İlançay vadilərindəki kəndlərə, Dərələyəz mahalına, Göyçə gölü, Qarabağ və Gəncə ətrafına, Şuşaya, Zəngəzura aparılıb. Ümumiyyətlə, duzun əsas istifadə bölgələri Naxçıvan, Ordubad, Yeni Bəyazid qəzaları, İrəvan quberniyası, Şuşa və İran olub.

Xalq arasında da duz yükü ən ağır iş sayılıb. İlk baxışdan yüngül görünən işlər haqqında "Hələ duza gedir, tamaşa qayıdandadır" deyilib. Duz yükünü qız uşağının böyüdülməsi, tərbiyəsi ilə də müqayisə edərək deyiblər: "Qız yükü, duz yükü". Burada qız yükünün duz yükündən maddi deyil, mənəvi ağırlığı diqqətə çatdırılır. Bərəkətinə and içilən, bir çimdiyi yerə töküləndə dava-dalaş düşəcəyinə inanılan duz həmişə təmizlik, paklıq, halallıq rəmzi sayılıb.

Naxçıvanda ilkin şəhərsalma mədəniyyətinin tarixinin, bu mədəniyyətin formalaşmasına mühüm təsir göstərən amillərdən olan Duzdağ mədəniyyətinin tədqiqi və təbliği diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə "Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", "Naxçıvan: ilkin şəhər və Duzdağ" və başqa beynəlxalq konfranslar keçirilib. Naxçıvanın tarixində Duzdağın və duzun oynadığı mühüm rol nəzərə alınaraq aparılan elmi tədqiqatların nəticələrinin sistemləşdirilməsini, arxeoloji tədqiqatlar zamanı əldə olunmuş maddi-mədəniyyət nümunələrinin qorunub saxlanılmasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Duz Muzeyi yaradılıb. Muzeyin açılışında Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: ***"Naxçıvanın tarixi Naxçıvan duzunun çıxarılma tarixi ilə bağlıdır. Naxçıvan tarixini tədqiq etmək üçün, ilk növbədə, Naxçıvan duzunun tarixini öyrənmək lazımdır. Çünki Naxçıvanın şəhər kimi formalaşmasında Naxçıvan duzunun, Duzdağın böyük əhəmiyyəti olmuşdur... Naxçıvan şəhəri məhz duzun çıxarıldığı bu ərazilərdə salınmışdır. Bu da o qənaətə gəlməyə imkan verir ki, Naxçıvan şəhərinin formalaşması 5-7 min il bundan əvvəl Naxçıvanda ilk dəfə duzun çıxarılması ilə başlanmışdır".***

Bu yaxınlarda isə Naxçıvan Duz Muzeyinin *www.duzmuzeyi.nakhchivan.az* internet saytı istifadəyə verilib. Sayt Naxçıvanın qədim şəhərsalma mədəniyyətini, Naxçıvan duzunun tarixdə oynadığı mühüm rolu bütün dünyaya çatdırmaq, elmi araşdırmalar nəticəsində əldə olunan maddi-mədəniyyət nümunələrinin qorunub saxlanması, virtual şəkildə təbliğini təmin etmək işində mühüm rol oynayacaq.

*Naxçıvan duzu bu gün də çox böyük əhəmiyyətə malikdir. Duzdağ isə dünyanın ən qədim duz mədəni olmaqla bərabər, həm də təbii şəfa mənbəyi kimi tanınır. Hər il minlərlə insan Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunur. Bütün bunlar bir daha göstərir ki, Naxçıvanın duz yaddaşı qədimdir, onu öyrənmək isə tariximizi öyrənmək qədər mühüm və olduqca əhəmiyyətlidir.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## Şairlərlə görüş

***Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin və Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının təşkilatçılığı ilə kitabxanada şairlərlə oxucuların görüşü keçirilib.***



Tədbiri giriş sözü ilə kitabxananın direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova açaraq belə görüşlərin gənclərin bədii ədəbiyyata marağının artırılmasına, şairlərlə oxucuların ünsiyyətinin daha da sıxlaşmasına xidmət etdiyini vurğulayıb.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Yadigar "Naxçıvanda ədəbi mühit" mövzusunda çıxış edib, Naxçıvan ədəbi mühitinin yetirmələri olan şair və yazıçılar barədə fikirlərini tələbələrlə bölüşüb.

Bildirilib ki, Naxçıvanda ədəbi mühit həmişə fəal olub. Ayrı-ayrı dövrlərdə bir sıra görkəmli yazıçılar Naxçıvanda işləyib, ədəbi mühitimizin formalaşmasına öz köməkliklərini göstəriblər. Azərbaycan tarixində folkloru, elmi, incəsənəti, memarlığı, hərb sənəti, dövlətçiliyi və digər sahələri ilə seçilən qədim Naxçıvan diyarının müxtəlif dövrlərdə özünəməxsus ədəbi mühiti şairlərin yaradıcılığına öz təsirini göstərib. Onların şeirlərinin əsas xəttini milli və mənəvi dəyərlərə hörmət, vətənpərvərlik hissinin təbliği, doğma el-obaya məhəbbət mövzuları təşkil edib. Müasir dövrümüzdə də ədəbi qüvvələrimiz muxtar respublikamızın bugünkü sürətli inkişafı, təbiətin bu diyara bəxş etdiyi təbii gözəllikləri, müasir tariximizi ədəbiyyatda əks etdirmək funksiyasını yerinə yetirirlər.

Sonra şairlərdən Asim Yadigar, Əbülfəz Ülvi, Zeyqəm Vüqar, Ələsgər Nehrəmli, Elxan Yurdoğlu, Yadulla Zaman, Qanun Ümman və şairə Ruhəngiz Əliyeva ümummilli lider Heydər Əliyevə, Azərbaycana, Naxçıvana, Vətənə həsr etdikləri şeirlərindən nümunələr səsləndiriblər.

✍ Güntac ŞAHMƏMMƏDLİ

## Seminar-trening

***Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Rəsm Qalereyasında muzey əməkdaşları üçün "Gənc nəslin təlim-tərbiyəsində muzeylərin rolu" mövzusunda seminar-trening keçirilib.***

Tədbirdə nazirliyin baş məsləhətçisi Qumral Əsədova çıxış edərək bildirib ki, bu ilin 11 ayında muxtar respublikanın muzeylərinə 1389 eksponat daxil olub. Bu müddətdə muzeylərimizi 552 min 745 tamaşaçı ziyarət edib ki, onlardan da 171 mindən çoxu xarici ölkə vətəndaşıdır.

Naxçıvan Dövlət Rəsm Qalereyasının direktoru Hökümə Məmmədli mövzu ilə bağlı çıxış edib.

Sonra muzeyin ekspozisiyasına baxış olub, tədbir iştirakçılarının sualları cavablandırılıb.

Əli RZAYEV

## Tikinti sahələrində fəaliyyət göstərən sahibkarlar üçün maarifləndirici tədbir keçirilib



*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Aparatında tikinti sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər ilə görüş keçirilib.*

Tədbiri Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədr müavini Vüsal Sevdimalıyev açıb.

Fondun Gəlirlər şöbəsinin müdiri Əli Həsənov qeyd edib ki, məcburi dövlət sosial sığortahaqqı əmək pensiyalarının maliyyələşdirilməsi üçün əsas mənbədir. Hər bir işləyən vətəndaş fəaliyyət göstərdiyi təşkilatda əməkhaqqının düzgün göstərilməsində, sosial sığorta haqlarının hesablanmasında, vaxtında və tam ödənilməsində maraqlı olmalıdır. Tikinti sahəsində fəaliyyət göstərən fiziki şəxslər isə şəxsən özləri sosial sığorta haqlarının düzgün hesablanmasını və ödənilməsini təmin etməlidirlər.

Bildirilib ki, məcburi dövlət sosial sığortahaqqı ödəyiciləri məcburi dövlət sosial sığorta haqlarını həm fondun internet səhifəsində onlayn ödəmə bölməsinə daxil olmaqla plastik bankomat kartları vasitəsilə, həm banklarda nağd qaydada onlayn ödəniş yolu ilə, həm də yerli poçt şöbələri vasitəsilə ödəyə bilərlər.

Sonra fondun Fərdi uçot şöbəsinin baş məsləhətçisi Elçin Səfərov çıxışında qeyd edib ki, fərdi uçot sisteminin formalaşdırılmasında əsas məqsədlərdən biri sığortaolunanların gələcəkdə alacaqları pensiyaların hansı məbləğdə olacağını qabaqcadan müəyyənləşdirmələrinə şərait yaratmaqdır. Fərdi uçotla bağlı yaradılmış bazadan istifadə etməklə sosial sığorta iştirakçıları haqqında dəqiq məlumat almaq mümkündür. Bu da, öz növbəsində, sığortaolunanın pensiyaya çıxacağı haqqında dəqiq proqnozların verilməsinə, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsinə daha operativ nəzarət etməyə imkan verir.

Çıxışda məcburi dövlət sosial sığorta haqları vaxtında və düzgün ödənilmədiyi təqdirdə qanunvericiliyə əsasən tətbiq olunan maliyyə sanksiyaları haqqında da ətraflı məlumat verilib.

Tədbirin sonunda suallar ətraflı cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Aqrar sahədə görüləcək işlər müzakirə olunub

***Ordubad rayonunun Sabirkənd kəndində "Payız-qış mövsümündə meyvə və üzüm bağlarında aparılacaq aqrotexniki tədbirlər və kənd təsərrüfatı texnikalarının saz vəziyyətdə olmasının əhəmiyyəti" mövzusunda tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə Ordubad Rayon İcra Hakimiyyətinin əməkdaşı Zamiq Babayev açaraq meyvəçiliyin inkişaf etdirildiyi Ordubad rayonunda gələcəkdə bol məhsulun əldə olunması üçün bağlarda aqrotexniki tədbirlərin görülməsinin vacibliyini vurğulayıb.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Xaliq Abbasov payız-qış mövsümündə meyvə və üzüm bağlarında aparılacaq aqrotexniki tədbirlər haqqında məlumat verərək bildirib ki, yeni meyvə bağlarının salınmasında aborigen sortlardan istifadə edilməli, muxtar respublikanın iqlim şəraitinə asan uyğunlaşan rayonlaşdırılmış meyvə ağaclarının əkininə önəm verilməlidir. Tinglər payız mövsümündə sükunət dövrünə keçdiyindən onların tutma ehtimalı daha çoxdur. Buna görə də havaların mülayim keçməsindən istifadə edərək yeni meyvə bağlarının salınması işləri davam etdirilməlidir.

Çıxışda meyvə bağlarında, xəstəlik və zərərvericilərə qarşı mübarizə aparmaq məqsədilə görülməsi zəruri olan tədbirlərdən də danışılıb.

Nazirliyin Texniki nəzarət və aqroservis sektorunun müdiri Valeh Mehdiyev qeyd edib ki, torpaq mülkiyyətçilərinin kənd təsərrüfatı texnikası və avadanlıqlarına olan tələbatının ödənilməsi istiqamətində son illərdə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən muxtar respublikaya 2400-ə yaxın, cari ilin ötən dövrü ərzində isə 300-dən çox texnika və texnoloji avadanlıq gətirilərək fermer və mülkiyyətçilərə lizinq yolu ilə icarəyə verilib.

Çıxışda traktor və kənd təsərrüfatı texnikalarının yaz aylarında fasiləsiz və dayanıqlı istismarını təmin etmək məqsədilə nəzərdə tutulan tədbirlərdən də bəhs edilib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Mütəxəssislərin hazırladıqları buklet və informasiya kitabçaları torpaq mülkiyyətçilərinə təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Qış aylarında nəqliyyat vasitələrinin hərəkətinin təmin olunması diqqətdə saxlanılmalıdır



***Hər kəsə məlumdur ki, nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin olunmasında ən önəmli meyarlardan biri də onun şinlərinin normativ tələblərə uyğun olmasıdır. Yəni şinlərin protektorundakı naxışların qalmış hündürlüyü nəqliyyat vasitəsinin növündən asılı olaraq minik avtomobilləri üçün 1,6, yük avtomobilləri üçün 1, avtobuslar üçün 2, motosikletlər üçün isə 0,8 millimetrdən az olmamalıdır.***

Protektorların ölçüsü qeyd olunan normadan aşağı olduqda təkərlə yol örtüyü arasında ilişmə əmsalı nəzərəçarpacaq dərəcədə azalır ki, bu da tormozlanmanın zəifləməsinə və nəticədə, nəqliyyat vasitəsinin sürüşməsinə səbəb olur. Ən əsası isə şinlər ölçüsünə və yükgötürmə qabiliyyətinə görə nəqliyyat vasitəsinin modelinə uyğun gəlməlidir.

Nəqliyyat vasitəsinin bir oxuna protektoru müxtəlif naxışlı şinlərin geyindirilməsi yolverilməzdir. Bütün bunlarla yanaşı, qış fəsli ilə əlaqədar olaraq sürücülər mütləq rezin şinlərdən istifadə etməlidirlər. Bu məqsədlə idarə və müəssisələrdə, avtovağzallarda sürücülər arasında, xüsusilə ümumi istifadədə olan nəqliyyat vasitələri sürücüləri arasında qış aylarında avtomobillərdə tətbiq olunan rezin şinlərin əhəmiyyəti barədə mütəmadi söhbətlər aparılır və sürücülərə zəruri məlumatlar verilir. Ona görə də hər bir sürücü idarə etdiyi nəqliyyat vasitəsinin rezin şinlərin istifadəsində məsuliyyətli olmalı, qarlı, buzlu hava şəraitində sürət həddini nəzarətdə saxlamalı, bir sözlə, mümkün olan bütün təhlükəsizlik tələblərinə əməl etməlidir. Eyni zamanda yağışlı, qarlı və tozlu hava şəraitində sürücünün yolu normal görə bilməsi üçün avtomobillərin qabaq şüşəsində şüşə siləcəkləri və şüşəyuyanlar nəzərdə tutulub ki, bu aqreqatlar da qeyd olunan hava şəraitində təhlükəsizlik baxımından əvəzolunmazdır.

Yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədilə sürücülərə şüşə siləcəkləri və şüşəyuyanların saz vəziyyətdə olmasına həssaslıqla yanaşmaları və şüşəyuyanları donmayan maye ilə doldurmaları tövsiyə olunur.

**Ayaz İSMAYILOV**
***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Təbliğat üzrə baş inspektoru, polis baş leytenantı***

## Qan donorlarının sayı artıb

*Ötən il Naxçıvan Muxtar Respublika Xəstəxanasında Qan bankının fəaliyyətə başlaması qan köçürülməsinə ehtiyacı olan xəstələrin müalicəsinə göstərilən tibbi xidmətin səmərəliliyini xeyli yüksəldib.*



Hazırda müxtəlif travma və yaralanmalar, mürəkkəb cərrahi əməliyyatlar zamanı qan itirmələrdə, xroniki qanazlığında, qanın irsi və qazanılmış xəstəliklərində, ürək, böyrək, mədə-bağırsaq, qaraciyər və digər daxili orqanların müxtəlif xəstəliklərində, onkoloji xəstələrin müalicəsində Qan bankı tərəfindən tədarük olunan qandan və ya qandan hazırlanmış preparatlardan geniş istifadə olunur. Bu isə qana olan tələbatı daha da artırır.

Muxtar respublikada son dövrlərdə qan donorlarının sayı iki dəfədən çox artıb. Qan komponentlərinin də miqdarı, keyfiyyəti və təhlükəsizliyi xeyli yüksəlib. Əhalinin bu işə aktiv cəlb edilməsi pullu donorluqdan tam imtina edilməsinə imkan yaradıb. Hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasında mövcud şərait mərkəzi Qan bankının fəaliyyətinə geniş imkanlar açıb. Qan Bankında qan komponentlərinin uzun müddət saxlanılması üçün dondurucu və soyuducu avadanlıqlar mövcuddur. Bu isə qanı 42 günə qədər, plazmanı isə bir il müddətində saxlamağa imkan verir.

Burada əlverişli şərait yaradılıb, yeni avadanlıqlar quraşdırılıb. Bu avadanlıqlar vasitəsilə Qan bankında müxtəlif xəstəliklərin müalicəsi üçün qanın komponentləri olan plazma, eritrositar, limfositar və trombositar kütlənin alınması, saxlanması və məqsədyönlü istifadəsi həyata keçirilir.

## Tibbi xidmətlərdə bayram güzəşti ediləcək

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Diaqnostika-Müalicə Mərkəzi Publik Hüquqi şəxsində vətəndaşlara göstəriləcək tibbi xidmətlərdə bayram güzəştləri ediləcək. Bu tədbirə dekabr ayının 15-dən start veriləcək və 2019-cu il yanvarın 15-də başa çatdırılacaq. Ay ərzində vətəndaşlara göstəriləcək tibbi xidmətlərə 20 faiz həcmində güzəştlər olunacaq.

Bu müddətdə vətəndaşlar Diaqnostika-Müalicə Mərkəzində həyata keçirilən tibbi xidmətin bütün növlərindən, o cümlədən ambulator, KT, MRT, rentgen, ultrasəs, laborator müayinələrdən yararlana bilərlər. Pasiyentlərə ay ərzində stasionar müayinə-müalicə təminatı da verilir. Onlar, həmçinin stomatoloji, cərrahi xidmətlərlə əhatə ediləcək və fizioterapiya təminatı alacaqlar.

Vətəndaşlar Naxçıvan Muxtar Respublikasının Diaqnostika-Müalicə Mərkəzi Publik Hüquqi şəxsində yaradılmış bu imkanlardan istifadə etməklə sağlamlıqlarının etibarlı şəkildə qorunmasına xidmət edə bilərlər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 904